# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

# GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ

Gəncə Dövlət Universitetinin Elmi Şurasının 04 oktyabr

2021-ci il tarixli iclasında (protokol №5) təsdiq edilmişdir

GDU-nun rektoru ______________ prof. Y.Ə.YUSİBOV

"04" oktyabr 2021-ci il

## Bakalavriat və ya daha yüksək dərəcəsi olan namizədlər üçün

## İŞƏ QƏBUL MEYARLARI

GƏNCƏ - 2021

1. Namizədlərə aşağıdakı meyarlara cavab verdikləri təqdirdə üstünlük verilə bilər.

- 2 ildən 5 ilə qədər iş təcrübəsi olan namizədlərin təcrübəsi qəbul olmaq istədiyi vəzifə ilə bağlıdırsa,
- 5 ildən 10 ilə qədər iş təcrübəsi olan namizədlərin təcrübəsi qəbul olmaq istədiyi vəzifə ilə bağlıdırsa,
- Academic Ranking of World Universities (Shanghai Ranking), Quacquarelli Symonds (QS), Round University Ranking (RUR) və Times Higher Education (THE) dünya universitetlərinin ümumi reytinqlərində ən yaxşı 1000 -də olan milli və beynəlxalq universitetlərdən qəbul olmaq istədiyi vəzifənin tələblərinə cavab verən magistr dərəcəsi olan namizəd olarsa,
- Qəbul olmaq istədiyi vəzifənin tələblərinə cavab verən digər magistr dərəcəsi olan namizəd olarsa,
- Təhsil aldığı sahə üzrə Nazirliklərin və ya fondların, eyni zamanda Avropa Birliyinin milli və ya beynəlxalq layihələrinin hər hansı birində tədqiqatçı kimi çalışmış və ya təqaüd proqramlarında iştirak etmiş namizəd olarsa,
- Clarivate Analitics (Web of Science), Elsevier, Scopus, Springer, ScienceDirect, Academia, Research Gate, PubMed və s. kimi bazalara daxil olan beynəlxalq indeksli jurnallarda nəşr olunan məqaləsi olan namizəd olarsa.

2. 10 il və daha çox iş təcrübəsi olan namizədlərin təcrübəsi qəbul olmaq istədiyi vəzifə ilə bağlıdırsa, orta bal, xarici dil, kompüter biliyi və s. kimi meyarlar nəzərə alınmaya bilər. (Ancaq xarici universitetlərin birində bakalavr təhsili alanlar üçün diplomun ölkədə tanınmasını təsdiq edən sənədin olması tələb olunur.)

3. Yerli universitetlərin birindən məzun olmuş minimum 71-100 buraxılış balı (orta bal) olan namizədlərə üstünlük verilir. İş təcrübəsi 10 il və ya daha çox olan namizədlərin iş təcrübəsi qəbul olmaq istədiyi vəzifə ilə bağlıdırsa, minimum orta bal meyarı nəzərə alınmır.

4. Xarici universitetlərdən (bakalavr, magistr və ya doktorantura) məzun olan namizədlərin, məzun olduqları universitetlərin diplomunun ölkədə tanınmasını təsdiq edən sənədin olması tələb olunur.

5. Orta müvəffəqiyyət balı 100 ballıq sistemlə hesablanmayan universitetlərdən məzun olan namizədlər üçün məzun olduqları universitet tərəfindən təsdiq edilmiş ekvivalentlik cədvəli tələb olunur. Bu sənəd namizəd tərəfindən təqdim edilmədiyi hallarda, namizədin orta balı müvafiq qaydalara uyğun olaraq 100 ballıq sistemə çevriləcək və uyğunluq meyarları buna uyğun olaraq təyin ediləcəkdir.

6. Xarici universitetlərin bakalavr dərəcəsinə sahib olan namizədlər üçün məzun olduğu universitetin diplomunun ölkədə tanınmasını təsdiq edən sənəd olmalıdır.

7. Qəbul olmaq istədiyi işin tələblərinə cavab verən doktorluq dərəcəsi alan namizədlərin I, II, və III maddələrdə göstərilən şərtlərə cavab verməsi tələb olunmur.

8. Namizədlərin qəbul olmaq istədiyi işin tələblərinə cavab verən kompüter biliklərinin olması və kompüterdən sərbəst şəkildə istifadə etməsi tələb olunur.

9. Namizədlərin qəbul olmaq istədiyi işin profilinə uyğun olan beynəlxalq sertifikata (Microsoft, CISCO, Oracle, GBM, PMA, PMP, TESOL və s.) malik olması nəzərə alınır.

10. İşə qəbul prosesində ən vacib meyar olaraq namizədin bəzi əsas bacarıqlara malik olması nəzərə alınır. Bunlar:

- Güclü ünsiyyət qurma bacarığının olması;
- Əməkdaşlıq üçün uyğun şəxs olması;
- Nəticə və həll yönümlü işləmə bacarığının olması;
- Təşəbbüskarlıq (Sahibkarlıq) ruhuna sahib olması;
- Özünü inkişaf etdirmək istəyinin olması;
- Kreativ düşüncəyə malik olması.

11. Namizədlərin Texniki / Rəhbər işçi köməkçisi / Ofis İşçisi / Xidməti işçi / Müəllim və s. kimi işlərdə bacarığının olmasını yoxlamaq üçün qaydalara uyğun olaraq struktur bölmə rəhbərləri tərəfindən müsahibə (müəllimlər üçün sınaq dərsləri) təşkil olunur.